# AMEA 2025-ci ildə mühüm

## *Akademiyanın Elmi Bölmələri və*

- **AMEA Kimya Elmləri Bölməsi**
- **AMEA "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi**



Yanvarın 23-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, bölmənin üzvləri, bölmənin elmi müəssisələrinin direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə AMEA-nın Kimya Elmləri Bölməsinin və "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin 2025-ci il ərzində əldə etdiyi nailiyyətləri, nəşr olunan elmi əsər və kitabları əks etdirən sərgiyə baxış olub.

İclası giriş sözü ilə açan **akademik İsa Həbibbəyli** tədbirin gündəliyi barədə məlumat verib. Akademik vurğulayıb ki, hazırda Kimya Elmləri Bölməsi optimallaşma, struktur islahatları və strateji hədəflərin müəyyənləşdirilməsi müstəvisində özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır.

AMEA prezidenti bölmənin nəzdindəki elmi müəssisələrin fəaliyyətinin müasir dövrün qlobal çağırışlarına və intellektual tələblərinə uyğun yenidən qurulmasında Elm və Təhsil Nazirliyinin səmərəli fəaliyyətini, eləcə də idarəetmədə tətbiq olunan innovativ yanaşmaları yüksək qiymətləndirib. Qeyd edib ki, hesabat çərçivəsində bölmənin nümayiş etdirdiyi sərgi Azərbaycan kimya elminin fundamental nailiyyətlərini əyani şəkildə təqdim edir.

Sonra **AMEA-nın vitse-prezidenti, bölmənin Elmi şurasının sədri akademik Dilqəm Tağıyev** bölmənin hesabatını təqdim edib. Akademik bildirib ki, hesabat ilində Kimya Elmləri Bölməsinin əhatə etdiyi elmi müəssisələrdə tədqiqatlar AMEA tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında 2021-2025-ci illərdə yerinə yetiriləcək elmi-tədqiqat işlərinin prioritet istiqamətləri"nə uyğun aparılıb.

Akademik Dilqəm Tağıyev qeyd edib ki, ötən il institutlar fəaliyyətlərində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər"i, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nı, "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya"nın Fəliyyət Planını və "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar Yol Xəritəsi"ni rəhbər tutublar.

Məruzəçi təqdimatında diqqətə çatdırıb ki, hesabat ilində KEB-in institutları üzrə elmi tədqiqatlar 12 problem, 41 mövzu və 110 iş üzrə həyata keçirilib. İnstitutların elmi məhsuldarlıq göstəricilərinə toxunan natiq akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu və Polimer Materialları İnstitutunun alimlərinin 263-ü xaricdə olmaqla, ümumilikdə 505 məqaləsinin dərc edildiyini, eləcə də bu məqalələrə 7300 sayda istinadların olunduğunu bildirib.

Təqdimatda 2025-ci ildə elmi-tədqiqat müəssisələrində kitab, monoqrafiya və dərslik olmaqla 47 nəşrin (2-si xaricdə), 505 məqalənin (263-ü xaricdə) çap olunduğu, əməkdaşların Scopus elmi bazasında 184, Web of Science bazasında indeksləşən jurnallarda isə 104 məqaləsinin işıq üzü gördüyü diqqətə çatdırılıb.





Məruzədə bildirilib ki, hesabat ilində bölmənin elmi-tədqiqat müəssisələri 3-ü xaricdə olmaqla 49 patent əldə edib.

Bundan əlavə, hesabatda bölmənin kadr potensialı, təltifləri, o cümlədən ötən il Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun 90, Aşqarlar Kimyası İnstitutunun 60 və görkəmli alimlər, akademik Y.Məmmədəliyevin 120, akademik H.Şahtaxtinskinin 125, akademik T.Şahtaxtinskinin 100 və akademik M.Rüstəmovun 95 illik yubileylərinin qeyd edilməsi barədə məlumatlar təqdim olunub.

İclasda Rəyasət Heyəti akademik Dilqəm Tağıyevin Kimya Elmləri Bölməsinin 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını müzakirə edib. Bölmənin illik fəaliyyəti məqbul hesab olunub müvafiq qərar qəbul edilib. Qərara əsasən, elmi tədqiqatların dövlət səviyyəsində müəyyən edilən "Rəqəmsal İnkişaf Konsepsiyası" və "Süni İntellekt Strategiyası"na uyğun, nəticəyönümlü istiqamətlərdə genişləndirilməsi tapşırılıb. Xüsusilə işğaldan azad edilmiş ərazilərin mineral xammal ehtiyatlarından səmərəli istifadə, "Yaşıl artım" prioriteti və müdafiə qüdrətinin artırılmasına xidmət edən strateji araşdırmalara üstünlük verilməsi qərara alınıb. Bununla yanaşı, innovativ polimer materialların alınması, sənaye tullantılarının təmizlənməsi və dərman maddələrinin effektivliyinin artırılması sahəsində elmi müəssisələr qarşısında konkret vəzifələr qoyulub. Yekun olaraq, bölməyə gənclərin elmə cəlb edilməsi, kimya elminə dair terminologiyanın zənginləşdirilməsi və kimya elmin populyarlaşdırılması istiqamətində fəaliyyəti gücləndirmək tapşırılıb.

Daha sonra "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat dinlənilib. Hesabatı Mərkəzin **direktor müavini professor Şaiq İbrahimov** təqdim edərək bildirib ki, ötən il "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı "Heydər Əliyev Ensiklopediyası"nın hazırlanması və Azərbaycan Milli Ensiklopediyasının növbəti cildləri üzərində işlərin aparılması istiqamətində fəaliyyət göstərib.





Natiq vurğulayıb ki, AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyasında "Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Tədbirlər Planı"nın müvafiq bəndinin icrasını təmin etmək məqsədilə "Heydər Əliyev Ensiklopediyası"nın hazırlanması nəzərdə tutulub.

Məruzədə diqqətə çatdırılıb ki, təsdiq olunmuş sözlüyə əsasən, "Heydər Əliyev Ensiklopediyası"nda Ümummilli Liderin Azərbaycanın dövlət strukturunun və dövlət rəmzlərinin formalaşmasında, Konstitusiyanın hazırlanmasında, ordu quruculuğunda və milli təhlükəsizliyin yaradılmasında olan xidmətləri, Azərbaycan xalqı və dövləti naminə həyata keçirdiyi fəaliyyətin tarixi icmalı, cəmiyyətdəki ideologiyanın Azərbaycançılıq, insanpərvərlik və demokratiyaya istiqamətləndirilməsi üçün gördüyü işlər, habelə xarici dövlətlər və təşkilatlarla əlaqələrin qurulmasında və inkişafında, xalqın sosial durumunun və ölkənin iqtisadiyyatının yaxşılaşdırılmasında, orta və ali təhsilin təşkilində və inkişafında, elmin prioritet istiqamətlərinin müəyyənləşdirilməsində, respublikada yeni klinikaların istifadəyə verilməsində, ölkədə olimpiya hərəkatının yaranmasında uğurlu fəaliyyəti, həmçinin Azərbaycanda musiqi mədəniyyətinin, bədii yaradıcılığın, muzey işinin, tarixi memarlıq qoruqlarının yaradılmasında və inkişafında, təbii sərvətlərimizin öyrənilməsinin və səmərəli istifadəsinin təşkilində misilsiz xidmətləri və s. əksini tapacaq.

Məruzəçi qeyd edib ki, "Heydər Əliyev Ensiklopediyası"na daxil ediləcək 800-ə qədər məqalənin ilkin variantı yazılıb, bunlardan 300-dən artıq məqalə hesabat ilində redakta olunub və hazırda qalan məqalələr redakte edilir.

Həmçinin vurğulanıb ki, 2025-ci ildə Elmi Mərkəzin sahə redaksiyaları tərəfindən hazırlanmış Azərbaycan Milli Ensiklopediyasının 600 səhifəlik 11-ci cildi çapdan çıxıb. Bu cild "Hindistanda xalq üsyanı" məqaləsi ilə başlayıb "İqdam" məqaləsi ilə tamamlanır.

Eyni zamanda Mərkəzin sahələr üzrə elmi redaksiyaları Azərbaycan Milli Ensiklopediyasının 12-ci cildinə aid məqalələrin ilkin variantını hazırlayaraq, redakte üçün humanitar və təbiyyat elmləri üzrə müvafiq elmi-ədəbi nəzarət və biblioqrafiya redaksiyalarına təhvil veriblər. Hesabat ili ərzində çoxcildli Azərbaycan Milli Ensiklopediyasının növbəti cildinə daxil edilmək üçün bütün elmi redaksiyaların hazırladığı məqalələrin ümumi sayı 2313 olub. Məqalələrin ilkin redaksiya variantları hazırlanaraq "Komplektləşdirmə, Texniki Tərtibat və Korrektura" şöbəsinə təhvil verilib və buradan redaktə olunmaq üçün müvafiq elmi-ədəbi nəzarət və biblioqrafiya redaksiyalarına yönəldilib. İl ərzində "Humanitar elmlər üzrə elmi-ədəbi nəzarət və biblioqrafiya" və "Təbiət elmləri üzrə elmi-ədəbi nəzarət və biblioqrafiya" redaksiyalarında Azərbaycan Milli Ensiklopediyasının növbəti cildlərinə daxil ediləcək 1367 məqalə yoxlanılıb redaktə edilmişdir.

Məruzə dinlənildikdən sonra AMEA-nın Rəyasət Heyətinin qərarı ilə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı məqbul hesab edilib, müvafiq qərar qəbul olunub.

İclasda təqdim olunan hesabatlar ətrafında **AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev, AMEA-nın müşaviri akademik Adil Qəribov, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsini icra edən AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, Neft-Kimya Prosesləri İnstitutunun direktoru akademik Vaqif Abbasov, BDU-nun kafedra müdiri akademik Abel Məhərrəmov və AMEA Rəyasət Heyəti aparatının Rəqəmsal Akademiya, süni intellekt və elektron akademiya şöbəsinin müdiri riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov** çıxış edərək, Azərbaycan elmi qarşısında duran vəzifələr, alimlərin fəaliyyətinin beynəlxalq standartlar əsasında qiymətləndirilməsi, onların reytinq göstəricilərinin yüksəldilməsi və elmi istinad indekslərinin artırılması, yüksək elmi nailiyyətlərə imza atan tədqiqatçıların maddi-mənəvi stimullaşdırılması və mükafatlandırılması mexanizmlərinin təkmilləşdirilməsi məsələlərinə toxunublar. Həmçinin rəqəmsal elmin hazırkı vəziyyəti fonunda süni intellekt texnologiyalarının tətbiqi, elm və texnologiya statistikasının müasir metodlarla hazırlanması və bu istiqamətlərdə qabaqcıl beynəlxalq elmi təcrübənin dərindən öyrənilməsinin zəruriliyi vurğulanıb.

Müzakirələrdən sonra AMEA Rəyasət Heyətinin qərarı ilə Kimya Elmlər Bölməsinin və "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin 2025-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatları təsdiq edilib, əldə olunmuş mühüm nəticələrin AMEA-nın illik hesabatına daxil edilməsi qərara alınıb.

İclasın yekununda çıxış edən akademik İsa Həbibbəyli son iki ildə AMEA-da elmi təşkilatların da hesabatlarının yeni elmi-metodoloji standartlar əsasında keçirildiyini bildirib. Qeyd edib ki, elmdə keyfiyyət və səmərəliliyin artırılmasına xidmət məqsədilə hər il təqdim olunan hesabatların müasir meyyarlar səviyyəsinə qaldırılması qarşıda duran əsas tələblərdən biri kimi müəyyən edilib.

# elmi nəticələr əldə edib

## *Elmi Mərkəzləri illik hesabat veriblər*

### ● AMEA Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi

Yanvarın 26-da Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.

Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsini icra edən AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin (FRTEB) üzvləri, bölmənin elmi müəssisələrinin direktorları, həmçinin əldə edilmiş mühüm elmi nəticələrin müəllifləri, elmi şöbə və laboratoriyaların rəhbərləri və aidiyyəti şəxslər iştirak ediblər.







Əvvəlcə Bölmənin əhatə etdiyi elmi müəssisələrdə süni intellektin tətbiqi əsasında həyata keçirilən innovativ layihələri, 2025-ci il üzrə əldə edilən nailiyyətləri, nəşr olunan elmi əsər və kitabları əks etdirən sərgiyə baxış olub.

İclası giriş sözü ilə **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** açaraq tədbirin gündəliyi barədə məlumat verib. O, 2025-ci il üzrə əldə olunan nailiyyətləri əks etdirən sərginin FRTEB-in həyata keçirdiyi əhəmiyyətli layihələr, elmi tədqiqat işləri və əldə olunan mühüm elmi nəticələr barədə dolğun və aydın təsəvvür yaratdığını, Bölmədə fəaliyyət göstərən alim və mütəxəssislərin ölkə elminin inkişafına mühüm töhfələr verdiyini vurğulayıb.

AMEA rəhbəri Bölmənin ötən il üzrə fəaliyyəti ilə bağlı mühüm məqamlardan birinin Springer və digər nüfuzlu beynəlxalq bazalarda nəşr olunan kitab və məqalələrin sayının artması olduğunu söyləyib, bu istiqamətdə əldə olunan uğurların beynəlxalq elmi mühitə inteqrasiya baxımından böyük önəm daşıdığını qeyd edib. O, həmçinin Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının "Azərbaycan Astronomiya Jurnalı"nın Scopus elmmetrik bazasına daxil olmasını bütövlükdə Bölmənin mühüm nailiyyəti kimi qiymətləndirib.

"2025-ci ildə fundamental və tətbiq xarakterli tədqiqatların əksəriyyəti Qarabağ bölgəsində aparılan bərpa və inkişaf prosesləri ilə bağlıdır", - deyən akademik İsa Həbibbəyli bu istiqamətdə həyata keçirilmiş işlərin və innovativ layihələrin regionun dayanıqlı inkişafına, infrastrukturun bərpasına və sosial-iqtisadi proseslərin elmi əsaslarla qurulmasına xidmət etdiyini vurğulayıb.

Bölmə üzrə gənc tədqiqatçıların fəaliyyətini xüsusi qeyd edən akademik İsa Həbibbəyli gənc alimlərin elmi prosesə fəal cəlb olunmasını müsbət hal kimi dəyərləndirib. Bölmədə həyata keçirilən gənclər siyasətinin məqsədyönlü və sistemli xarakter daşıdığını, yüksəkixtisaslı peşəkar kadrların yetişdirilməsi və onların dünya elminə inteqrasiyası istiqamətində mühüm nəticələrin əldə edildiyini vurğulayıb.

Daha sonra **AMEA-nın vitse-prezidenti, FRTEB-in Elmi şurasının sədri, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev** FRTEB-in 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat məruzəsini təqdim edib. O, AMEA-nın 80 illik yubiley tədbirində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nitqində Akademiyanın qarşısında mühüm strateji vəzifələr müəyyənləşdirdiyini xatırladaraq, Rəyasət Heyətinin iclasında həmin çıxışdan irəli gələn tapşırıqlar, eləcə də 2026-cı il üçün Bölmə üzrə müəyyənləşdirilən elmi prioritetlər ətrafında müzakirələrin aparılacağını diqqətə çatdırıb.

Müasir reallıqlar kontekstində Azərbaycan elmində həyata keçirilən islahatlardan söz açan akademik Rasim Əliquliyev qeyd edib ki, bu proses ölkə üzrə elmi fəaliyyətin daha səmərəli təşkili, optimallaşdırılması, stimullaşdırma mexanizmlərinin genişləndirilməsi, qabaqcıl beynəlxalq təcrübənin ölkəyə transferi məsələlərini əhatə edir.

Onun sözlərinə görə, hesabat ilində FRTEB-in elmi istiqamətləri üzrə tədqiqatlar bir tərəfdən ölkənin milli maraqlarından irəli gələn, digər tərəfdən isə müasir dünyanın tələb və çağırışlarına müvafiq olan məsələləri əhatə edib. Bölmənin əhatə etdiyi müəssisələrin elmi tədqiqat planlarında həm fundamental, həm də tətbiqi tədqiqatlar yer alıb və bir sıra mühüm elmi nəticələr əldə olunub.

Akademik Rasim Əliquliyev bildirib ki, 2025-ci ildə FRTEB-in ölkə üzrə əhatə etdiyi elmi müəssisələrdə 7 elmi istiqamət üzrə 33 problemə aid 101 mövzuya dair 259 tədqiqat işi, 89 mərhələ aparılmış, 34 mövzu, 173 iş, 89 mərhələ tamamlanıb. Bu tədqiqatların nəticələrinin 104-ü Bölmə tərəfindən müzakirə edilərək mühüm nəticə kimi dəyərləndirilib.

Vitse-prezident FRTEB-in elmi-təşkilati fəaliyyətində Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, habelə dövlət proqramlarının, AMEA-nın 20 fevral 2025-ci il tarixli Ümumi yığıncağının, AMEA Rəyasət Heyətinin qərarlarının, AMEA prezidentinin sərəncamlarının, FRTEB qarşısında duran vəzifə və tapşırıqların icrasına xüsusi diqqət yetirildiyini, bu istiqamətdə bir sıra mühüm tədbirlərin həyata keçirildiyini söyləyib.

O, ötən il ərzində qəbul edilmiş mühüm qərarlar və görülmüş işləri diqqətə çatdıraraq vurğulayıb ki, 2025-ci ildə akademik Fərəməz Maqsudovun 95, akademik İsmayıl İbrahimovun 110, akademik Firudin Haşımzadənin 90, akademik Telman Əliyevin 90, akademik Yusif Məmmədovun 75, AMEA-nın müxbir üzvü Kamil Ayda-Zadənin 75, AMEA-nın müxbir üzvü Namiq Cəlilovun 70, AMEA-nın müxbir üzvü Aydın Kazımzadənin 75, AMEA-nın müxbir üzvü Rauf Hüseynovun 85,



AMEA-nın müxbir üzvü Rüfət Mir-Qasımovun 85 illik yubileylərinin keçirilməsi haqqında AMEA-nın Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması barədə qərarlar qəbul edilib. Hesabat ilində AMEA-nın 80 illik yubileyinə hazırlıq tədbirləri çərçivəsində FRTEB-nin elmi istiqamətlərinə, xüsusilə də, rəqəmsal transformasiyalar, süni intellektin tətbiqi ilə bağlı tövsiyələr hazırlanaq AMEA Rəyasət Heyətinə təqdim edilib, AMEA-80 kitabları seriyasından "Akademik Mahmud Kərimov elmi yaddaşda və xatərələrdə" kitabı hazırlanaraq nəşr olunub. Bundan başqa, hesabat ilində FRTEB-in Elmi şurasında SOCAR-ın Elm Fondunun qrant müsabiqəsində qalib olmuş fizika, riyaziyyat və texnika elmləri üzrə layihələrin 2025-ci il üzrə icrasına dair hesabatları dinlənilib, aparılan tədqiqatların nəticələri təhlil olunub. Dövlət qurumlarının sorğuları əsasında elmi ekspertiza xidmətləri göstərilib, İKT sahəsinə aid olan müxtəlif strategiya, proqram, saziş, müqavilə və s. rəsmi sənəd layihələrinə ekspert rəyləri verilib.

Akademik Rasim Əliquliyev əlavə edib ki, hesabat ilində E-Azərbaycanın bir seqmenti olan e-elmin formalaşdırılması və inkişafı istiqamətində işlər davam etdirilib, İndustry 4.0-ın platformasında kritik infrastrukturların kiber dayanıqlığının təmin olunması üçün intellektual texnologiyaların işlənməsi istiqamətində araşdırmalar aparılıb, science 4.0 platformasında süni intellektin tətbiqi məsələləri tədqiq olunub və perspektiv təkliflərin reallaşdırılması üçün tövsiyələr verilib. Eyni zamanda, IV Sənaye İnqilabının çağırışlarının həyata keçirilməsi, Süni intellekt, Big Data texnologiyalarının və kiberfiziki sistemlərin elmi-nəzəri problemlərinin araşdırılması və geniş tətbiqinə xüsusi diqqət yetirilib.

O, Bölmənin elmi istiqamətləri üzrə dövri elmi jurnalların nəşrinin diqqət mərkəzində olduğunu söyləyib. Qeyd edib ki, elmi jurnalların nüfuzlu beynəlxalq elmi bazalarda indeksləşdirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunub və bu istiqamətdə fəaliyyət davam etdirilməkdədir. Eyni zamanda, 2025-ci il ərzində FRTEB-in əhatə etdiyi elmi müəssisələrdə nəşr olunan elmi jurnallarda ümumilikdə 551 məqaləyə DOİ verilib.

Vitse-prezident Bölmənin əhatə etdiyi elmi müəssisələrin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Dövlət Proqramları, strategiya, yol xəritələri, fəaliyyət planları və s.-nin həyata keçirilməsində fəal iştirak etdiyini bildirib. Həmçinin hesabat ili ərzində FRTEB-in əhatə etdiyi elmi müəssisələr tərəfindən işğaldan azad olunmuş ərazilərə dair bir sıra istiqamətlərdə tədqiqatların davam etdirildiyini və mühüm nəticələrin əldə olunduğunu vurğulayıb.

Elm və təhsilin inteqrasiyasından da bəhs edən akademik Rasim Əliquliyev FRTEB müəssisələrinin 200-dən çox aliminin müxtəlif ali təhsil ocaqlarında ixtisas fənlərindən mühazirələr apardığını, magistr dissertasiyası işlərinə rəhbərlik etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, həmçinin Bölmə institutlarında çalışan alimlər bir sıra universitetlərdə Dövlət imtahan komissiyalarına sədrlik ediblər. Bir sıra əməkdaşlar Dövlət İmtahan Mərkəzinin eksperti qismində testlərin hazırlanmasında, qəbul imtahanlarında, müxtəlif tədbirlərdə yaxından iştirak ediblər. Bundan başqa, Bölmənin elmi istiqamətləri üzrə çalışan alim və mütəxəssisləri tərəfindən magistrlər, doktorant və dissertantlar, elmi işçilər və mühəndislər üçün nəzərdə tutulmuş dərsliklər və dərs vəsaitləri çap olunub.

Akademik Rasim Əliquliyev elm və istehsalat arasında əlaqələrin gücləndirilməsi, patent fəaliyyəti, elmi tədqiqatların nəticələrinin tətbiqi məsələsinə də toxunaraq bildirib ki, 2025-ci ildə 23 elmi tədqiqat işinin nəticəsinin tətbiqi üzrə plana müvafiq tədbirlər icra olunub. Bölmənin əhatə etdiyi elmi müəssisələr patent almaq üçün 19 iddia sənədi verib, 7-si respublikada, 4-ü xarici ölkələrdə olmaqla 12 patent alıblar.

O, elmi müəssisələrin aktivliyini və məhsuldarlığını qiymətləndirmək üçün elmi müəssisələrdə əldə olunmuş nəticələrin reytinqini elmmetrik göstəricilər əsasında təqdim edib. 2025-ci ildə FRTEB üzrə elmi müəssisələrin elmi kadr potensialının Scopus və WoS bazalarında dərc olunmuş məqalələrinin sayı və orta məhsuldarlıq göstəricilərini diqqətə çatdırıb.

Vitse-prezident Bölmənin alim və mütəxəssislərinin mühüm elmi nailiyyətlərinin beynəlxalq aləmdə də yüksək qiymətləndirildiyini deyərək, FRTEB elmi müəssisələrinin 6 aliminin adının ABŞ-ın Stenford Universitetinin ən nüfuzlu reytinq siyahısına daxil edildiyini vurğulayıb. Qeyd edib ki, bu reytinq siyahısı iki mühüm göstərici - məqalə və istinadların sayı əsasında hazırlanır. İlkin mərhələdə ən azı 5 məqaləsi Elsevier nəşriyyatının Scopus bazasında indeksləşən alimlər seçilir.

Alim, həmçinin respublikanın elm və ali təhsil müəssisələrində FRTEB-in elmi istiqamətləri üzrə 2025-ci ildə aparılmış tədqiqatların mühüm nəticələrini qeyd edib. O, Bölmə əməkdaşlarının GOOGLE SCHOLAR elmmetrik bazasında fəaliyyətinin statistik göstəriciləri, kadr potensialı, nəşr olunmuş mühüm elmi nəticələr, qrant layihələri, elmin populyarlaşdırılması istiqamətində görülən işlər və s. barədə məlumat verib.

Çıxışının sonunda akademik Rasim Əliquliyev FRTEB-in fəaliyyətinin daha səmərəli təşkilinə dair bir sıra təklif irəli sürüb.

Daha sonra hesabat üzrə müzakirələr aparılıb. **Akademiklər Arif Həşimov, Əli Abbasov, AMEA-nın müxbir üzvləri Əminağa Sadıqov, Namiq Cəlilov, İslam Mustafayev və texnika elmləri doktoru Elxan Səbziyev** çıxış edərək fikirlərini bildirib, hesabatları qənaətbəxş qiymətləndiriblər.

Müzakirələrdən sonra AMEA Rəyasət Heyətinin qərarı ilə Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin 2025-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı təsdiq edilib, əldə olunmuş mühüm nəticələrin AMEA-nın illik hesabatına daxil edilməsi qərara alınıb.

FRTEB-in iclasında ilk dəfə olaraq qərar layihəsi süni intellekt vasitəsilə səsləndirilib.

Sonda çıxış edən akademik İsa Həbibbəyli ötən ilin noyabr ayında AMEA-nın 80 illik yubiley tədbirində Prezident İlham Əliyevin Azərbaycan elminin qarşısına qoyduğu yeni hədəf və prioritetlərə toxunub, dövlət başçısının səsləndirdiyi çağırışlar və irəli sürdüyü ideyaların Azərbaycan elminin yeni mərhələdə inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edib ki, Prezident İlham Əliyev həm AMEA-nın yubiley tədbirindəki proqram xarakterli çıxışında, həm də yerli televiziya kanallarına verdiyi müsahibəsində Azərbaycan dilinin inkişafı, kibertəhlükəsizlik, rəqəmsallaşma və süni intellekt kimi strateji istiqamətlər üzrə tədqiqatların genişləndirilməsinin vacibliyini xüsusi olaraq diqqətə çatdırıb. AMEA rəhbəri bu çağırışların elmi ictimaiyyət qarşısında məsuliyyəti daha da artırdığını deyərək, alimləri birgə fəaliyyət göstərməyə, ölkə elminin tərəqqisi naminə səylərini birləşdirməyə çağırıb.

O, alim və mütəxəssisləri, elmi təşkilat rəhbərlərini Azərbaycan elminin gələcəyi olan gənc alimlərə, doktorant və dissertantlara hərtərəfli dəstək verməyə, onların elmi inkişafına diqqət və qayğı ilə yanaşmağa səsləyib.

FRTEB üzrə əldə olunan elmi nailiyyətlərin Azərbaycan elminin gələcək inkişafı üçün möhkəm zəmin yaratdığını söyləyən akademik İsa Həbibbəyli, bu istiqamətdə müsbət dinamikanın sonrakı illərdə də davam edəcəyinə əminliyini ifadə edib.

AMEA rəhbəri bildirib ki, ümumilikdə Bölmənin fəaliyyəti 2024-cü illə müqayisədə daha da inkişaf etmiş, impakt faktorlu jurnallarda dərc olunan məqalələrin sayında artım müşahidə edilmişdir. Bu tendensiya isə, müasir dövrdə dünya elminə inteqrasiyanın əsas göstəricilərindən biridir.